# İNKLÜZİV TƏHSİL (ƏSAS ANLAYIŞLAR)

**p.ü.f.d. Lamiə Hacımuradova**
**Gəncə Dövlət Universitetinin baş müəllimi**
**İnklüziv təhsil üzrə təlimçi-mentor**

Əlilliyi olan uşaqların ümumtəhsil məktəblərində təhsili bir çox ölkələrin, eləcə də Azərbaycanın cəlb olunduğu inklüziv təhsil sisteminin qanunauyğun inkişaf mərhələsidir. Bu inkişaf sxematik olaraq aşağıdakı mərhələlərdən keçmişdir:

I mərhələ - diskriminasiya (əlilliyi olan uşaqlar ümumiyyətlə təhsildən kənarda qalır)

II mərhələ - seqreqasiya (əlilliyi olan uşaqlar ya xüsusi məktəblərdə oxuyur, ya da evdə təhsilə cəlb olunur)

III mərhələ - inteqrasiya (əlilliyi olan uşaqlar ümumtəhsil məktəblərində tipik uşaqlarla birlikdə, lakin ayrı siniflərdə xüsusi proqram əsasında oxuyur)

IV mərhələ - inklüziya (əlilliyi olan uşaqlar ümumtəhsil müəssisələrində tipik uşaqlarla eyni siniflərdə təhsil alır).

Əlilliyi olan uşaqların təhsilinə belə yanaşma həyatda müxtəlif xarakterli səbəblərlə əlaqədardır. Ümumilikdə bu səbəbləri iqtisadi, hüquqi inkişaf baxımından müəyyən səviyyəyə nail olmuş cəmiyyət və dövlətlərin sosial tələbləri kimi müəyyənləşdirmək olar. Son mərhələ cəmiyyət və dövlətlər tərəfindən əliliyi olan şəxslərə münasibətin dəyişdirilməsi, yalnız hüquqlarının tanınması deyil, təhsil də daxil olmaqla, həyatın müxtəlif sahələrində onlara digər insanlarla bərabər imkanların yaradılması ilə xarakterizə olunur.

İnklüziv təhsilin gətirdiyi dəyişikliklərin nəticəsində yalnız əlilliyi olan uşaqlar deyil, bütün uşaqlar qazanacaqlar.

**"İnklüziv"** sözü ingilis dilindəki ***inclusive*** sözündən tərcümədə **"daxilolma"**, fransız dilindəki ***inclusif*** sözündən isə **"özündə birləşdirən"**, latınca ***include* – "daxil edirəm, birləşdirirəm"** feilindən yaranmışdır.

**İnklüzivlik** təhsil dünyasında güclü bir termindir. Bu, qəbul, dəstək və hər bir şagirdin özünü xoş, bacarıqlı və dəyərli hiss etməsinə dair öhdəliyi ifadə edir. Lakin inklüziv təhsil təkcə fərqli ehtiyacları olan təhsilalanları eyni qrupda və ya sinifdə yerləşdirməkdən ibarət deyil, təhsilin mahiyyətini dəyişdirərək hər kəs üçün əlçatan olmasını təmin etməkdən ibarətdir.

Ümumi mənada "inklüziv təhsil" – **təhsil mədəniyyətinin, təhsillə bağlı siyasət sənədlərinin və təcrübələrin geniş spektrli təhsilalanlara** (əlilliyi olan və

olmayan qızlar və oğlanlar, etnik, dil, dini, sosial-iqtisadi mənsubiyyətləri fərqli olan uşaqlar... və b.) **uyğun olması üçün yenidən qurulmasını ehtiva edir.**

Buna görə də əminliklə deyə bilərik ki, İnklüziv təhsil cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, etnik mənsubiyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından (fiziki, əqli, emosional, sosial, linqvistik) və ya digər vəziyyətlərindən asılı olmayaraq hər bir təhsilalanın əsas təhsil hüququna malik olduğu inancından irəli gəlir. Bu fəlsəfəyə əsaslanan inklüziv təhsil sadəcə bir islahat və ya təhsil tendensiyası deyil, həm də cəmiyyətdə hüquq bərabərliyinin qorunması işində əsaslı dəyişiklikdir. Məsələn: Bir bağ təsəvvür edin. Bütün şəraitinin təmin edildiyi bu bağda hər bir bitki, istər hündür ağaclar, istərsə də adi kollar, günəş işığından, sudan və qida maddələrindən öz payını alır. Bəzilərinin daha çox, bəzilərinin isə daha az qulluğa ehtiyacı ola bilər, lakin hər bir bitki ekosistemin tarazlığı üçün vacibdir.

Təcrübə fəlsəfədən daha mürəkkəbdir. Xüsusi tədris metodlarına materialların uyğunlaşdırılması, dəstəkləyici mühitin yaradılması və davamlı müəllim təhsili təcrübəyə daxildir. Müəllimlər, idarəçilər və valideynlər əməkdaşlıq etməli, davamlı öyrənməyə və uyğunlaşmağa açıq olmalıdırlar.

**İnklüziv təhsilin üstünlükləri:**

- Dostluq;
- Ümumi təhsilə böyük çıxış;
- Başqaları ilə münasibət qurmaq imkanları;
- Akademik, sosial və davranış bacarıqlarının formalaşması;
- Artan sosial təşəbbüsləri, münasibətləri və şəbəkələri;
- Gələcək mühitə qoşulmaq, cəmiyyətin yararlı üzvü olmaq imkanları;
- Gələcək həyatlarına müstəqil davam etmək bacarıqları;
- Həyata, yaşamağa artan inam və ümidləri.

**İnklüziv təhsilin çətinlikləri:**

- Bütün təhsilverənlər inklüziv sinifdə dərs deməyə hazır deyillər;
- Təhsilalanların çoxu kütləvi sinifdə olarkən daha çox diqqət və kömək tələb edirlər;
- Təhsilalanların, təhsilverənlərin və valideynlərin bəziləri sinifdə fərqliliyi olan şagirdləri qəbul edə bilmirlər.

**İnklüziv təhsil bütün uşaqların keyfiyyətli təhsil almaq hüququna əsaslanır.**

2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Dövlət Proqramının məqsədi sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir. Dövlət Proqramı 6 bölmədən ibarətdir: Giriş, Proqramın məqsədi, Əsas vəzifələr, Gözlənilən nəticələr, Maliyyələşdirmə mənbələri, Dövlət Proqramının həyata keçirilməsi üzrə tədbirlər planı.

Dövlət Proqramının **məqsədi** sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir. Dövlət Proqramının **əsas vəzifələri** aşağıdakılardır:

- sağlamlıq imkanları məhdud şəxslərin təhsilin bütün pillələri üzrə inklüziv təhsil hüququnu təmin etmək məqsədi ilə normativ hüquqi aktların təkmilləşdirilməsi;
- təhsil müəssisələrinin və tədris proqramlarının sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılması üçün tədbirlərin görülməsi;
- sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təşkili ilə bağlı pedaqoji kadrların hazırlanması və ya əlavə təhsilə cəlb olunması;
- inklüziv (inteqrativ) təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazasının yaradılması;
- sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması və sosial inteqrasiyasının vacibliyi barədə aidiyyəti dövlət qurumları ilə birlikdə təbliğat və ictimai maarifləndirmə işinin aparılması.

"Əlilliyi olan şəxslər" kimdir? Konvensiyanın 1-ci maddəsinə əsasən "Əlilliyi olan şəxslər müxtəlif maneələrlə qarşılaşarkən cəmiyyətin həyatında tam və səmərəli iştiraka mane olan fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan insanlardır". Tərifə əsasən şəxsi əlil edən şey onun məhdudiyyəti ilə ətraf mühitdəki maneələr arasındakı əlaqədir. **Əlillik** nadir fenomen deyil və insan müxtəlifliyinin tərkib hissəsidir. Təqribi hesablamalara görə, dünya əhalisinin 15 faizi əlilliyə malikdir. Həyatın erkən mərhələlərində zəif tibbi xidmət və qidalanma, yaşlı əhalinin artması və zorakı münaqişələr səbəbilə bu göstəricinin artacağı gözlənilir. Münaqişə nəticəsində xəsarət alan və ya ömürlük əlil olan uşaqların sayı həyatını itirən uşaqların sayından üç dəfə çoxdur. Əlilliyi olan şəxslərin 80 faizi inkişaf etməkdə olan ölkələrdə yaşayır və yoxsulların bu göstəricidə payı qeyri-mütənasib dərəcədə yüksəkdir. Bu önəmlidir, çünki əlillik yalnız fərdlərə deyil, onların ailələrinə, onlara qulluq göstərənlərə də təsir edir.

Həmçinin məlumdur ki, əlilliyi olan uşaqlar çoxsaylı ayrı-seçkilik formaları ilə üzləşir ki, bu da onların cəmiyyətdən və təhsildən təcrid olunmasına səbəb olur. Məsələn, əlilliyi olan qızlar xüsusilə həssas vəziyyətdədir və bu, onların gender əsaslı zorakılıq, cinsi zorakılıq, baxımsızlıq, pis rəftar və istismarla üzləşmə riskini artırır.

Əlilliyi olan uşaqlara münasibətlər, habelə inklüziv təlim mühitlərinin olmaması və üstəlik zəruri resurs və informasiya çatışmazlığı onların təhsildən istifadə ilə bağlı çətinliklərini daha da ağırlaşdırır. Buna görə də, təhsildən kənarda qalan uşaqların arasında əlilliyi olan uşaqların payı qeyri-mütənasib dərəcədə yüksəkdir.

Müsbət məqam isə ondan ibarətdir ki, həm əlilliyi olan, həm də əlilliyi olmayan uşaqların bərabər əsaslarla öz hüquqlarından, o cümlədən keyfiyyətli təhsil hüquqlarından istifadə edə biləcəyi inklüziv cəmiyyət qurmaq üçün effektiv yollar mövcuddur. Lakin fiziki və siyasi əngəllər, mənfi münasibətlər, o cümlədən mənfi stiqma və ayrı-seçkiliyin aradan qaldırılması çox vacibdir. İnklüziv təhsil bütün şagirdlərin rifahına dəyər verən bir prosesdir və özü özlüyündə son nəticə deyil.

Təhsil - əlilliyi olan uşaqların və onların ailələrinin tez-tez üzləşdiyi ayrı-seçkilik zəncirini qırmaq üçün ən effektiv yollardan biridir. Əlilliyi olan uşaqlar digər uşaqlarla eyni hüquqlara malik olsa da, tarixən onlar təhsil sistemindən ən çox təcrid olunan qrup olmuşdur.

Əlilliklə bağlı düşüncələr zamanla kifayət qədər təkamül edib. Tarixən əlillik konsepsiyasına dair iki əsas yanaşma mövcud olub:

- **Tibbi model:** əlilliyi tibb mütəxəssislərinin yardımı ilə müalicə olunmalı vəziyyət kimi izah edir.

**Əlilliyin tibbi modeli** - Rifah həkimlərin əllərindədir:

- Əlillik fərdin sahib olduğu və müalicə olunmalı sağlamlıq vəziyyətidir.
- Fərdin xəstəliyinin müalicə olunmasına və ya idarə edilməsinə ehtiyacı var.
- Ağrını yüngülləşdirmək tibb mütəxəssisinin öhdəliyidir və bunu yalnız o bacarar.

"İnsanı nə əlil edir?" sualına tibbi modeldən yanaşaraq bu cür cavablandıra bilərik ki:

- ✓ İnsanlar gəzə bilmədikləri üçün əlil olurlar.
- ✓ İnsanlar eşidə bilmədikləri üçün əlil olurlar.
- ✓ İnsanlar görə bilmədikləri üçün əlil olurlar.
- ✓ İnsanlar danışa bilmədikləri üçün əlil olurlar.

Əlilliyə tibbi modeldən yanaşan insanda aşağıdakı anlayışlar formalaşır:

- ✓ Əlillər müəyyən normalara uyğun gəlmirlər və buna görə də:
- ✓ Əlillər hər zaman xəstədirlər

- ✓ Əlillər işləyə bilmirlər
- ✓ Əlillər adi məktəblərə gedə bilmirlər
- ✓ Əlillərin uşağı olmamalıdır
- ✓ Əlillər başqa birinin öhdəsində yaşayırlar
- ✓ Əlillər başqalarına yük olurlar

Tibbi modeldə cəmiyyətdə xüsusi müəssisələrin nə üçün yaradıldığını, müəyyən qanunların nə üçün qəbul edildiyini və əlillərin cəmiyyət həyatından təcrid edilməsi üçün siyasətin bu şəkildə qurulduğunu başa düşmək asan olur. Əlil insanlara tibbi model gözlüyündən baxdıqda onlar cəmiyyətin tərkib hissəsi kimi görünmürlər.

Əlilliyin tibbi modeli fərdə köklənir, onu problemi olan insan kimi təsvir edir. Bu yanaşma şəxsin cəmiyyətdə fəal olmamasına şərait yaradan amilləri və ya maneələri nəzərə almır. İnklüziv təhsil kontekstində isə tibbi yanaşma əlilliyi olan uşaqların məktəbdə öyrənmək və səmərəli şəkildə iştirak etmək imkanlarını məhdudlaşdırır. Əlilliyə tibbi yanaşma insan hüquqlarına əsaslanan yanaşmanın dinamikliyini və kompleks xarakterini əks etdirmir, fərdə diaqnozu əsasında baxmağımıza gətirib çıxarır. Nəticədə uşaq əlilliyə görə damğalanır, maneələri aradan qaldırmaq və təhsil sistemində islahat aparmaq əvəzinə uşaq problem olaraq qəbul olunur.

**- Sosial model:** Son dövrlərdə, əlilliyi olan şəxslərin iştirakına mane olan əngəllər daha yaxşı başa düşüldüyündən, sosial model meydana çıxdı. Bu model hesab edir ki, əlillik konkret fiziki, əqli, hissi və ya psixi sağlamlıq pozuntularına sahib olan şəxslə onu əhatə edən sosial və mədəni mühit arasındakı qarşılıqlı təsirlərin nəticəsidir. Buna görə də, əlillik cəmiyyətdə mövcud olan münasibətlər və ətraf mühitlə bağlı olan və institusional xarakterli maneələrlə müşayiət olunan sosial-siyasi konsept hesab edilir. Bu, həmçinin insan hüquqlarına əsaslanan yanaşma və ya əlillik konsepsiyasının insan hüquqları modeli ilə uzlaşır.

Son on illər ərzində əlilliyin sosial modelinə doğru paradiqma dəyişikliyi ilə əlaqədar olaraq, məlum oldu ki, məktəbəqədər təhsildən tutmuş ali təhsilədək inklüziv, maneəsiz təhsil sistemi yanaşması əlilliyi olan uşaqların keyfiyyətli təhsil almasına, habelə digər yaşıdları ilə bərabər əsaslarla təhsildə iştirak etməsinə imkan verməyən maneələri azaldacaqdır.

- **Əlilliyin sosial modeli** - Rifah cəmiyyətin əllərindədir.
- Əlillik sosial problemdir.
- Şəxsə sosial mühakimənin qurbanı kimi yanaşılır.
- Cəmiyyətin öhdəliyi maneələri aradan qaldırmaqdır.

Beləliklə, daha əvvəl verilən "İnsanı əlil edən nədir?" sualına sosial əlillik modelinin "kultural gözlüyü" ilə baxan insan onu aşağıdakı kimi cavablandıracaq:

- ✓ İnsanlar ətraf mühitdəki fiziki maneələrə görə əlil olurlar

✓ İnsanlar informasiya və ünsiyyət imkanından məhrum olduqları üçün əlil olurlar
✓ İnsanlar adi məktəblərə və ali təhsil müəssisələrinə gedə bilmədikləri üçün əlil olurlar
✓ İnsanlar başqaları ilə bərabər iş imkanlarına malik olmadıqları üçün əlil olurlar
✓ İnsanlar yaşayış yerinin olmamasına görə əlil olurlar
✓ İnsanlar nəqliyyatdan istifadə edə bilmədikləri üçün əlil olurlar
✓ İnsanlar cəmiyyətdə əlilliyə qarşı mənfi münasibət olduğu üçün əlil olurlar
✓ İnsanlar sistematik ayrı-seçkiliyin olduğu üçün əlil olurlar

Bu nümunələrin köməyi ilə biz anlayırıq ki, əlillik insan hüquqları ilə əlaqədar məsələdir.

Bütün uşaqlar çətinliklər ilə üzləşir və ya müəyyən məqamda təlim ehtiyacları olur, eyni əlilliyə malik uşaqların eyni təlim ehtiyaclarının olması şərt deyil.

İnklüziya sahəsində araşdırmalar göstərir ki, cəmiyyət əlilliyi olan uşaqların assimilyasiyasına neytral və ya passiv-mərhəmət mövqeyi nümayiş etdirir: belə uşaqların problemi ətrafdakılar tərəfindən mühitin öhdəliyi kimi deyil, uşaqların öz çətinlikləri kimi qəbul edilir. Cəmiyyətdə əlilliyi olan uşaqları əhatə edən əksəriyyət onlara qarşı passiv tolerantlıq göstərir. Buna görə də inklüziv təhsil bu gün yalnız hamı üçün təhsil sisteminin möhkəmlənməsi prosesi kimi deyil, həm də əlilliyi olan insanların diskriminasiyasının aradan qaldırılmasının səmərəli vasitəsi kimi qəbul edilir.

- Yalnız əlilliyi olan uşaqlar deyil, bir çox uşaqlar məktəbdə öyrənərkən çətinliklərlə üzləşirlər;
- Bu çətinliklər təlimi yaxşılaşdırmaq üçün istifadə edilən üsullara işarədir;
- Aparılan dəyişikliklər bütün uşaqlar üçün təlim şəraitinin yaxşılaşdırılmasına səbəb olmalıdır;
- Müəllimlərin fəaliyyətinin inklüziv olması üçün əlilliyi olan uşaqlarla ayrıca məşğul olmaq üçün mütəxəssislər cəlb etmək əvəzinə onların peşəkarlıq səriştəsi inkişaf etdirilməlidir;
- Əlilliyi olan uşaq problem deyil. Əksinə, uşağın təhsil ehtiyaclarına cavab vermədiyi üçün məktəb problem hesab edilir və uşağın ehtiyaclarına uyğun olmaq üçün adaptasiya olunmalıdır

İnklüzivlik bir anlayışdan daha çox şey kəsb edir. Bu, düzgün tətbiq edildikdə təhsil sistemini dəyişdirə bilən rəhbər prinsiplər toplusudur. İnklüzivlik inklüziv tətbiqləri dəstəkləyən bir neçə əsas sütuna əsaslanır:

*Bərabərlik: İnklüziv təhsilin təməli bərabərlikdən aydın şəkildə fərqlənən ədalətliliyə nail olmaqdır. Bərabərlik hər kəsə eyni resursları vermək demək olsa da, ədalətlilik hər bir şagirdin məktəbdə və məktəbdən kənarda uğur qazanması üçün lazım olan resurslara əlaçatanlığını təmin edir. Nümunə: Təsəvvür edin ki, üç uşaq hasarın üstündən baxmağa çalışır. Onlardan biri digərlərindən daha hündürdür. Hər üç uşağa eyni ölçülü qutunun (bərabərlik) verilməsi daha qısa olan uşağın hasarın üstündən görməsinə çətinlik yaradacaq. Bununla belə, daha qısa olan uşağa daha uzun bir qutu (bərabərlik) vermək hər ikisinə hasarın üstündən effektiv şəkildə baxmasına imkan verəcəkdir.*

*Fərqlilik:* Hər bir uşaq unikaldır və bunu başa düşmək çox vacibdir. Fərqliliyin tanınması fərqliliyii qəbul etməkdən çox, daha zəngin öyrənmə təcrübələri üçün bu fərqləri qiymətləndirmək və istifadə etməklə əlaqəlidir. Nümunə: Yalnız çoxluq təşkil edən mədəniyyətin deyil, sinifdə təmsil olunan bütün mədəniyyətlərin müxtəlif festivallarını qeyd edən sinif otağı, azlıq təşkil edən şagirdlərin özlərini bu mühitin bir parçası olaraq hiss etmələrini təmin etməklə yanaşı, eyni zamanda hər kəsin dünya haqqında anlayışını zənginləşdirir.

*Əlçatanlıq:* Həqiqi inklüzivlik o deməkdir ki, fiziki və ya intellektual bütün resurslar hamı üçün əlçatan olsun. Təhsil müəssisələrinin infrastrukturundan tutmuş istifadə olunan tədris materiallarına qədər bütün qabiliyyətlərə malik olan şagirdlərin onlardan yararlana bilməsini təmin etmək çox vacibdir. Nümunə: Hərəkət problemi olan uşaq ikinci mərtəbədəki sinif otağına daxil olmaqda çətinlik çəkə bilər. Rampaların və ya liftlərin olması təhsilalanların dərsdə maneəsiz iştirakına şərait yaradır. Əgər bu mümkün deyilsə, o zaman təhsil müəssisəsi həmin təhsilalanın oxuduğu sinfin birinci mərtəbədə olmasını təmin etməlidir. Həmçinin, ekran oxuma qabiliyyətinə malik rəqəmsal alətlər görmə qabiliyyəti zəif olan şagirdlərə kömək edə bilər.

*İnklüziv icma:* Təkcə fərqli ehtiyacları olan uşaqların təhsil müəssisələrində yerləşdirilməsi ilə bağlı deyil; hər bir təhsilalanın özünü oraya aid hiss etdiyi bir icma yaratmaqdır. İnklüziv icma bütün təhsilalanların, valideynlərin və pedaqoji heyətin harmoniyada işlədiyi, bir-birini dəstəklədiyi və yüksəltdiyi cəmiyyətdir. Nümunə: Autizmli bir uşaq əvvəlcə sosial qarşılıqlı əlaqəni qorxuducu hesab edə bilər. Bununla belə, sinif yoldaşları, müəllimlər və valideynlər şagirdi fəaliyyətə və qrup işinə cəlb etmək üçün əməkdaşlıq etdikdə, bu, cəmiyyət və aidiyyət hissini gücləndirir.

İnklüziv təhsilin əsas elementləri bir-biri ilə sıx əlaqəlidir. Bərabərliyin təmin edilməsi fərqliliyin tanınması və əlçatanlığın təmin edilməsi mənasına gələ bilər. İcma hissini inkişaf etdirmək hər bir şagirdin fərqli güclü tərəflərini başa düşmək və istifadə etməkdən irəli gəlir. Bu sütunlar tanındıqda və dəstəkləndikdə, inklüziv

təhsil həqiqətən inkişaf edə və təkcə ayrı-ayrı şagirdlərə deyil, bütövlükdə cəmiyyətə fayda verə bilər.

- Damğalama həm mənfi, həm də müəyyən dərəcədə faydalı ola bilər. Uşağın diaqnozunu bilmək məktəbdə onun ehtiyac duyğuğu dəstəyi almasını təmin etməkdə müəyyən dərəcədə faydalı ola bilər. Lakin damğalama mühitin və sosial proseslərin yaratdığı maneələri nəzərə almadığı üçün uşağın məktəb həyatına mənfi təsir edir. Biz əlilliyi olan uşağı tibbi diaqnozla damğaladıqda onun ehtiyacı olan dəstək barədə stabil fikir yaradırıq. Damğalama problemi ondan ibarətdir ki, bəzən eyni diaqnozlu uşaqlara eyni dəstək tələb olunmur. Damğalama uşağın məhdudiyyətinin sabit olmadığını və zamanla dəyişə biləcəyini nəzərə almır. Biz hamımız yaşlandıqca müəyyən məhdudiyyətlər qazana bilərik. Damğalama, həmçinin şəxsin güclü cəhətlərini və istedadını nəzərə almır. Bütün uşaqlar məktəbdə iştirak edə, qarşılıqlı ünsiyyətdə ola, öyrənə və mühitə uyğunlaşa bilərlər. Şəxsin məhdudiyyətinə görə damğalanması bizi onun qabiliyyətlərini, istedadını və istəklərini öyrənməkdən çəkindirə bilər.

Əlilliyi olan uşaqların damğalanmasının mənfi təsirləri:

- Damğalama gözləntilərin aşağı düşməsinə səbəb olur.
- Müəllimlərin onları qorumağa çalışması uşağın darıxmasına və həvəsdən düşməsinə səbəb olur.
- Damğalama müəyyən alt-qrupa daxil olan bütün uşaqların xüsusi resurslarla xüsusi qaydada öyrədilməsi fikrini möhkəmləndirir.
- Əlilliyi olan uşaqlara xüsusi tapşırıqlar verildiyi halda uşaqlar tapşırıqları yerinə yetirmək üçün sinifdən ayrılır, digər uşaqlar isə həmin vaxt fasiləyə çıxır, incəsənət və ya idman dərslərinə gedirlər. Bu hal əlilliyi olan uşaqları təcrid etməklə onları inkişaf üçün zəruri olan fəaliyyətlərdən məhrum edir.
- Bəzən müəllimlər uşağın öyrənmə çətinliklərini aradan qaldırmağın mümkün olmadığını düşünürlər.
- Bəzən isə müəllimlər "əlilliyi olan uşaqlarla məşğul olmaq ekspertlərin işidir" qənaətinə gəlirlər.
- Damğalanma müəllimlərin inamını azaldır. Əlilliyi olan uşaqları öyrətmək üçün onlara xüsusi resursların lazım olduğunu düşünə bilərlər.
- Nəticədə əlilliyi olan uşaqlar digər uşaqlardan ayrılaraq seqreqasiyaya məruz qalır

**İnklüziv təhsilə aparan yol inklüziv dəyərlərin formalaşmasından başlayır.**

Xatırladırıq ki, yalnız özünü daim tərbiyə edən adam yaxşı tərbiyəçi-müəllim ola bilər. Bu adi həqiqət daim özünütərbiyə ilə məşğul olmaqla mükəlləf olan

pedaqoqu çətin və məsuliyyətli vəzifəsinin icrasında zəruri pedaqoji-psixoloji prinsiplərlə tanış etmək ehtiyacını doğurur:

1) Prinsiplər xarakteri gücləndirir. Müəllim öyrənənlərin qarşısında güclü xarakterli şəxsiyyət kimi çıxış etməlidir. İradəsiz, xaraktersiz tərbiyəçi-müəllim öz davamçılarından güclü xarakterli, iradəli adamlar yetişdirə bilməz.

2) Ardıcıllıq. Qarşıya qoyulmuş məqsədi hər zaman izləmək, uşaqlarla başladılmış işi sona çatdırmağa çalışmaq, ardıcıllığı nümayiş etdirmək lazımdır.

3) Zəiflik və səhvlərə gülməmək. Uşaqlar bacarıqsızlıq göstərəndə səbirsizlik etmək, buna barmaqarası yanaşmaq olmaz.

4) Sakitliyi və özünüidarəni qorumaq. Həyatın hər anında sakitlik və özünüidarə vacibdir: uşaqların kəskin toqquşması, iş zamanı uşağın bıçaq, hətta balta ilə zədələnməsi, yaxınlıqdakı təhlükə: məsələn, haradasa yanğının baş verməsi, dənizdə və ya çayda qəfil qasırğa, elektrik xətlərinin qəfil qırılması, uşağın məktəbdən qaçması, uşaqların təhlükəli oyunları, ekskursiya zamanın yolun itirilməsi, ürəkgetmə, uşaqlara və ya müəllimə qarçı güclü qəzəb və s.

5) Təmkinli danışıq. Əqli geriliyi olanlarla aydın, tələsmədən, səsi ucaltmadan danışmaq lazımdır. Yalnız həddini aşan uşağın yarada biləcəyi toqquşmanın qarşısını almaq məqsədilə səsin qəfil ucaldılmasına yol verilə bilər. Xatırlamaq zəruridir ki, səsin ucaldılmasından sui-istifadə uşaqları qıcıqlandırır, sakitləşdirmək əvəzinə, əsəbləşəni özündən çıxarır.

6) Qətiyyətli davranış. Yadda saxlayın ki, əlilliyi olan uşaqların çox zaman təqlid etmə xüsisuyyəti olur və müəssisənin ümumi rejimi ilə yanaşı, müəllim öz davranışı ilə onları müaicə edir.

7) Səlislik və tutarlılıq. Şübhəli, əsaslandırıla bilinməyən fikirləri söyləməmək daha doğru olar. Qeydlər və tövsiyələr uşağa psixoterapevtik təsir göstərir, dayanıqsız və xəstə xarakteri tərbiyə edir.

8) Daha az söz! Heç bir uzun mülahizə və sözçülük olmaz. Yadda saxlamaq lazımdır ki, çox izah etmək – uşağın əvəzinə düşünmək, onların özünə düşünməyə imkan verməməkdir. Qısa, aydın, sadə dillə danışmalı!

9) Zövqlü və ədəbli görünüş. Əl-üzün təmizliyi, kostyumun təmizliyi və səliqəsi, daranmış saçlar, zərif aksessuarlar. Yadda saxlamalı ki, nümunə həm mənfi, həm də müsbət istiqamətdə ən yaxşı tərbiyəçidir.

10) Qərəzə yol veməmək. Uşaqlarla münasibətdə hər cür qərəzdən çəkinməli. Heç bir imtiyaz, heç bir xüsusi əzizləmələrə yol verilməməli. Müxtəlif münasibət göstərmək olar (fərdiləşdirmə). Amma heç bir qərəzli münasibət olmamalıdır. Uşaqlar bu mövzuda çox həssasdırlar.

11) Konfidensiallıq. Uşaqların qarşısında müəssisənin əleyhinə, müəssisənin qaydalarına əks fikirlər, pedaqoq-yoldaşların, digər köməksi personallar da daxil olmaqla digər əməkdaşların davranışları əleyhinə heç bir fikir bildirilməməli. Bu

barədə uşaqlar şikayətlə müraciət edərlərsə, araşdırıb həqiqəti öyrənmədən heç bi fikir söylənməməli. Uşaqların qarşısında onların özləri və yoldaşlarının müsbət və mənfi xüsusiyyətləri, uşağın ailəsi və digər dəlillər haqqında heç nə söyləməməli. Bu məlumatlar uşaqların anladığı şəkildə təhrif oluna bilər.

12) Qərar verməyə tələsməmək. Müəllimlərin, texniki əməkdaşların və digərlərinin davranışları haqqında uşaqların sensasion söhbətlərinə inanmamalı. Normal uşaqların münasibətlərindəki qeyri-dəqiqliyi yada salıb fərqli şagirdlərin şişirtmələrini, psevdofantaziyasını və yüksək özünətəlqini nəzərdə saxlamalı.

Əlilliyi olan uşaqlarla effektiv ünsiyyət mədəniyyətinin formalaşdırılması üçün tərbiyəçi-müəllim aşağıdakı problem xarakterli məsələləri həll etməyə çalışmalıdır:

- ✓ onun şəxsi fikir və tövsiyələrinin dərk edilməsi üçün uşaqlara geniş imkanlar yaratmalıdır;
- ✓ tədris-təlim prosesində məlumatların tam və aydın tərzdə qavranılması üçün uşaqlarda bacarıqlar inkişaf etdirilməlidir;
- ✓ uşağın böyüklərin nitqini tam başa düşülməsi təmin olunmalıdır;
- ✓ verbal və qeyri-verbal nitq arasındakı uyğunluq gözlənilməli və inkişaf etdirilməlidir.

Uşaqların davranışını idarə etmək tərbiyəçi-müəllim üçün vacib məsələdir. Uşağın davranışına təsir edəcək üsullardan biri də modelləşdirmədir. Modelləşdirmə prosesi uşağa gördüklərini öyrətməkdir. Odur ki, tərbiyəçi-müəllim modelləşdirmə üsulundan səmərəli istifadə etməlidir. Modellər xüsusilə faydalıdır, çünki modeli müşahidə edərkən davranışı təkrarlamağı öyrənən uşaq bu prosesdən vərdişlər haqqında çox informasiya qazanır.

Yaşından, cinsindən və coğrafi məkanından asılı olmayaraq əlilliyi olan bütün insanların problemləri ümumi xarakter daşıyır. İnklüziya təkcə əlilliyi olan uşaqların deyil, həmçinin yoxsul, öz ana dillərində təhsil almayan, fərqli mədəniyyət mühitindən gəlmiş uşaqların da qabiliyyətlərinin təhsil proqramları vasitəsilə açılmasını nəzərdə tutur.

İnklüziv təhsilin 4 əsas xüsusiyyətini fərqləndirmək olar:

1. Əqli və fiziki imkanları əhatə edən müxtəlif tələblərin təmin edilməsi və müxtəlifliklərin hesaba alınma imkanlarının optimal üsullarının axtarışı;

2. Təhsilalanların yaradıcı potensialının və məsələləri həll etmə bacarığının müxtəlif yollarla stimullaşdırılması;

3. Təhsilalanların təhsil müəssisəsinə getmək, öz fikrini ifadə etmək, kefiyyətli tədris prosesində iştirak edərək şəxsi, sosial və etnik xüsusiyyətlərindən asılı olmayaraq, müəyyən nəticələr əldə etmək hüquqlarının təmin edilməsi;

4. Sosial uzaqlaşdırmaya məruz qala bilən, həmçinin davamiyyəti qənaətbəxş olmayan təhsilalanlara mənəvi dəstəyin göstərilməsi.

İnklüziv təhsilin vacib komponentləri aşağıdakılardır: müvafiq inklüziv təcrübəni dəstəkləyən bir fəlsəfə hazırlamaq; inklüziv təhsildə əməkdaşlıq; qiymətləndirmə; fərdi tədris proqramı (FTP); inklüziv təhsildə reabilitasiya xidmətinin təşkili; inklüziv təhsildə pedaqoq və psixoloqların rolu; inklüziv təhsildə digər xidmətlərin rolu; inklüziv təhsildə valideynlərlə işin təşkili; peşə təhsili. İnküliziya haqqında yanlış təsəvvürlər: məktəbdə olmaq hər şey demək deyil; üzməyi bilməyəni suya atmaq məqsədəuyğun deyil; diqqəti məqsədə deyil, hərəkətə yönəltmək; proqramın əsas meyarı, hər bir uşağın fərdi təhsil ehtiyaclarının ödənilməsi deyil onun öyrənilməsidir; sakitcə oturmağı fəal iştirakın alternativi kimi qəbul etmək.

Mövcud maneələr:

- Təhsil müəssisələrinin arxitextura cəhətdən əlçatmazlığı;

-Xüsusi təhsil ehtiyacları olan uşaqların oxumağa qadir olmamalarının qəbul edilməsi;

- Təhsil müəssisələrinin pedaqoji kollektivinin əlillik məsələləri haqqında kifayət qədər məlumatının olmaması;

- Öyrənmə prosesinə əlilliyi olan uşaqların daxil olması;

- Əlilliyi olan uşaqların valideynləri uşaqların təhsil hüquqlarını müdafiə etməyi bacarmırlar, onları təhsilə cəlb etməyə çəkinirlər.

İnklüziv təhsil sahəsində çalışan hər bir müəllim, tərbiyəçi-müəllim aşağıdakılar üzrə bacarıqlara qadir olmalıdır:

1. Əlilliyi olan uşaqların cəmiyyətə inteqrasiyası;

2. Uşaqların təhsilə cəlb olunması;

3. Əqli inkişafın, qavrama bacarıqlarının qiymətləndirilməsi və inkişaf etdirilməsi;

4. Kiçik və böyük motor bacarıqlarının qiymətləndirilməsi və onlar üzərində iş;

5.Sosial və özünəxidmət bacarıqlarının aşılanması;

6. Uşaq inkişafı sahəsində müxtılif mövzulu təlimlərin keçirilməsi;

7. Uşağın və ailənin psixoloji problemlərinin araşdırılması, konsultasiya xidmətlərinin verilməsi;

8. Ünsiyyət və nitq bacarıqlarının qiymətləndirilməsi və inkişaf etdirilməsi;

9. Ailələrə sosial xidmətin ğöstərilməsi, ailələrin maariflədirilməsi.

Göründüyü kimi, **Əlillik** cəmiyyət tərəfindən yaradılan problemdir. Əlillik xəstəlik deyil.

Qeyd etmək lazımdır ki, hər bir insanın yardıma ehtiyacı var. Odur ki, Mahatmi Qandinin dediyi kimi: “Dünyada görmək istədiyin dəyişiklik səndən başlamalıdır”.

## Ədəbiyyat siyahısı:


1. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz "İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının oxu materialı. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019.
2. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz. İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019
3. İnklüziv təhsil. Əlilliyi olan uşaqları keyfiyyətli təhsilə cəlb etmək üçün nə etmək lazımdır? Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019
4. İnklüziv təhsil. Valideynlər üçün bələdçi. RİİB, Bakı, 2020
5. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti. Xüsusi kitabça 3. UNICEF, RİİB, Bakı 2020
6. İnklüziv təhsil konsepsiyası və onun UNİCEF-in missiyası kontekstində aydınlaşdırılması. Texniki kitabça 1. Bakı, UNİCEF, 2020
7. Hacımuradova L.N. İnklüziv təhsil baxdığınız güzgüləri dəyişir. // Gəncə Dövlət Universitetinin elmi xəbərləri. Gəncə 2019, № 3; səh.240-243
8. Loreman T., Deppeler J., Harvey D. İnklüziv təhsil. Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. Bakı, İdeal Print, 2020